***Biz hər bir vətəndaşa kömək etmək istəyirik, hər bir vətəndaşa! İcra başçılarının, digər mərkəzi və yerli icra orqanlarının rəhbərlərinin vəzifəsi budur. Hər bir icra başçısı vəzifəyə təyin olunanda ona mənim əsas sözlərim odur ki, get, vətəndaşlara xidmət et, get, vətəndaşlarla bir yerdə ol, təmiz işlə, rüşvət alma, vətəndaşları incitmə, kömək göstər, eyni zamanda, sahibkarlara kömək göstər, onların malını əlindən alma, onların fəaliyyətindən özünə pay istəmə. Hər birinə bu sözləri deyirəm. Bu məsələ ilə bağlı bizim mövqeyimiz qətidir, birmənalıdır.***

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***



# Korrupsiyaya qarşı mübarizə davamlı xarakter daşıyır

***Dövlətimizin başçısı İlham Əliyev prezidentlik fəaliyyəti dövründə korrupsiya və rüşvətxorluğun aradan qaldırılmasını daim diqqət mərkəzində saxlayıb. Bu istiqamətdə ardıcıl qərarlar verib, müvafiq proqramlar imzalayıb. Atılan bu addımlar isə sosial-iqtisadi islahatların gerçəkləşdirilməsinə mənfi təsir göstərən, ayrı-ayrı sahələrin davamlı inkişafına əngəl törədən, ən başlıcası isə ədalətli cəmiyyət quruculuğunu ləngidən halların qarşısına sədd çəkməklə ölkənin gələcək dayanıqlı inkişafının şərtləndirilməsi məqsədi daşıyıb.***

Son illərdə isə bu bəlaya qarşı daha ciddi mübarizə aparılır. Vətəndaşların və dövlətin qanunla qorunan mənafelərinə ciddi zərər vuran, hüquqazidd əməllərə yol verən vəzifəli şəxslər daha sərt şəkildə cəzalandırılır, aşkarlanan korrupsiya və rüşvətxorluq kimi mənfi meyillər aradan qaldırılır.

Korrupsiyaya qarşı mübarizənin miqyasının getdikcə genişləndirilməsi, əslində, Prezident İlham Əliyevin rəhbərliyi ilə aparılan hərtərəfli islahatların ən əsas elementlərindən biridir. Bununla bağlı ölkə səviyyəsində həm inzibati, həm də institusional üsullardan geniş istifadə olunması da məhz qeyd edilən fikrin bariz ifadəsidir.

Ölkəmizdə korrupsiya və rüşvətxorluğa qarşı mübarizə tədbirləri aparıcı beynəlxalq təşkilatlar – BMT-nin Narkotiklər və Cinayətkarlıq üzrə İdarəsi (UNODC), İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (OECD), Avropa Şurasının antikorrupsiya monitorinq orqanı – Korrupsiyaya qarşı Dövlətlər Qrupu (GRECO), MONEYVAL Komitəsi və digər nüfuzlu beynəlxalq qurumlar tərəfindən də yüksək qiymətləndirilir. Avropa Şurasının antikorrupsiya monitorinq orqanının – Korrupsiyaya qarşı Dövlətlər Qrupunun (GRECO) fəaliyyətini əks etdirən hesabatda Azərbaycana verilən yüksək qiymət də bunun əyani nümunəsidir.

Xatırladaq ki, adıçəkilən hesabat parlament üzvləri, hakimlər və prokurorların fəaliyyətində korrupsiyanın qarşısının alınması məsələlərindən bəhs edir. Sənəddə, həmçinin Azərbaycan tərəfindən tövsiyələrin 61,9 faiz icra olunduğu, respublikamızın bu göstərici üzrə Avropa Şurasına üzv 50 ölkə arasında 7-ci, MDB ölkələri arasında isə 1-ci yerdə qərarlaşdığı vurğulanır.

Belə bir müsbət nəticə yuxarıda xatırlatdığımız kimi, Azərbaycanda korrupsiyaya qarşı mübarizə sahəsində səmərəli tədbirlərin gerçəkləşdirilməsi, bu yöndə güclü siyasi iradənin nümayiş etdirilməsi ilə əlaqədardır. Yeri gəlmişkən, respublikada bu təhlükəli meyilin tamamilə aradan qaldırılması bu gün prioritet istiqamətdir. Prezident İlham Əliyevin "Korrupsiyaya qarşı mübarizənin gücləndirilməsinə dair 2022–2026-cı illər üçün Milli Fəaliyyət Planı"nın təsdiq edilməsi haqqında 4 aprel 2022-ci il tarixli Sərəncamı da bunun bariz ifadəsidir.

Həmin sərəncamda dövlət qurumlarının fəaliyyətində şəffaflığın daha da artırılması, korrupsiyaya şərait yaradan halların qarşısının alınması, dövlət orqanlarının ictimaiyyət qarşısında hesabatlılığının gücləndirilməsi, dövlət qurumları tərəfindən əhaliyə göstərilən xidmətlərin daha da təkmilləşdirilməsi və elektronlaşdırılması, eləcə də korrupsiyaya qarşı mübarizə ilə bağlı görülən tədbirlərin davamlılığının təmin edilməsi məqsədilə qarşıya bir sıra mühüm vəzifələr qoyulub. Belə ki, mərkəzi və yerli icra hakimiyyəti orqanları, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus hüquqi şəxslər, həmçinin dövlət adından yaradılmış publik hüquqi şəxslər tərəfindən "Korrupsiyaya qarşı mübarizənin gücləndirilməsinə dair 2022—2026-cı illər üçün Milli Fəaliyyət Planı"nda nəzərdə tutulan tədbirlərin icrası barədə hər il dekabrın 30-dək Nazirlər Kabinetinə və Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyasına illik hesabat təqdim edilməsi tapşırılıb. Eyni zamanda, Ali Məhkəmə, Baş Prokurorluq, Məhkəmə-Hüquq Şurası, İnsan hüquqları üzrə müvəkkil (ombudsman), Mərkəzi Bank və Hesablama Palatası, habelə bələdiyyələrin milli assosiasiyalarına adı çəkilən fəaliyyət planında nəzərdə tutulan tədbirlərin icrasını təmin etmələri tövsiyə olunub. Həmçinin Nazirlər Kabineti və Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyanın fəaliyyət planının yerinə yetirilməsi ilə əlaqədar görülən işlərin vəziyyətinin mütəmadi təhlilini apararaq, bu barədə Azərbaycan Prezidentinə məlumat vermələri qərara alınıb.

"Korrupsiyaya qarşı mübarizənin gücləndirilməsinə dair 2022–2026-cı illər üçün Milli Fəaliyyət Planı"nda bildirilir ki, bu çoxşaxəli sənəd fərqli fəaliyyət istiqamətləri olan müxtəlif qurumların korrupsiyaya qarşı mübarizə səylərini birləşdirməyə xidmət edir, eləcə də korrupsiyaya qarşı mübarizənin bütün dövlət strukturları və vətəndaş cəmiyyəti institutları ilə birgə sistemli və əlaqəli şəkildə gerçəkləşdirilməsinə imkan yaradır.

Ümumi inkişafa və təhlükəsizliyə mənfi təsir göstərən korrupsiya qanunun aliliyinə və sosial ədalətə ciddi təhlükə yaradır, iqtisadi və sosial inkişafı ləngidir, əlverişli biznes mühitinin yaranmasına mane olur.

Korrupsiya tarix boyu cəmiyyətlərin üzləşdiyi problemlərdən olaraq, bu gün də bütün dünya ölkələrində aktual problemlərdən biri olaraq qalır. Adı çəkilən fəaliyyət planında bildirilir ki, korrupsiyaya qarşı mübarizənin davamlı olması, korrupsiyanın qarşısının alınması ilə bağlı müasir çağırışlara uyğun səmərəli mexanizmlərin tətbiq edilməsi xüsusi önəm daşıyır. Buna görə də həm beynəlxalq, həm də milli səviyyədə korrupsiyaya qarşı mübarizədə yeni təşəbbüslərin irəli sürülməsi zəruridir və bu sahədə reallaşdırılan tədbirlər korrupsiyaya şərait yaradan halların və korrupsiya hüquqpozmalarının səbəblərinin, növlərinin, habelə nəticələrinin qarşısının alınmasına yönəldilməlidir.

Azərbaycanın korrupsiyaya qarşı mübarizə təcrübəsi sistemli, kompleks və innovativ xarakteri ilə seçilib. Bu sahədə görülən tədbirlər çərçivəsində korrupsiyaya qarşı mübarizəyə dair milli strategiya və fəaliyyət planları qəbul edilib, yeni baxışlar və vəzifələr müəyyənləşdirilib. Hazırda ölkəmizdə sosial dövlətin yeni modeli formalaşıb və dövlət siyasətində insanların yüksək sosial rifahına nail olmaq qarşıya əsas məqsəd kimi qoyulub.

Ölkəmizdə son illərdə əsas strateji vəzifələri reallaşdırmaq üçün beynəlxalq miqyasda və ölkə daxilində görülən məqsədyönlü, düşünülən tədbirlər nəticəsində istər sosial-iqtisadi inkişaf, istərsə də hüquqi-institusional zəmin baxımından əhəmiyyətli irəliləyişə nail olunub. Eyni zamanda, Vətən müharibəsi nəticəsində işğal altında olan ərazilərin azad edilməsi ilə ölkəmiz üçün yeni inkişaf mərhələsi açılıb.

Xarici və yerli investorların həmin ərazilərdə infrastruktur layihələrinin icrasına cəlb edilməsi, bu torpaqlarda sahibkarlıq fəaliyyətinin genişləndirilməsi kimi dövlətin yeni strateji prioritetləri bölgənin gələcək inkişafının carçısıdır. Korrupsiyadan azad mühit və şəffaflıq kimi komponentlər isə məhz bu inkişafın başlıca amilləridir.

Ölkəmizin hazırkı inkişaf mərhələsi korrupsiyaya qarşı mübarizə sahəsində görülməli olan sistem xarakterli tədbirlərin səmərəliliyini və davamlılığını təmin edəcək yeni bir sənədin — Korrupsiyaya qarşı mübarizəyə dair yeni Milli Fəaliyyət Planının qəbul edilməsini şərtləndirir. Bu fəaliyyət planında əks etdirilən kompleks tədbirlərin icrası ölkəmizdə korrupsiyaya qarşı mübarizə sahəsində həyata keçirilən məqsədyönlü və qətiyyətli fəaliyyətin tərkib hissəsi kimi, şəffaflığın artırılmasına, dövlət orqanları (qurumları) tərəfindən göstərilən xidmətlərin keyfiyyət etibarilə yaxşılaşdırılmasına, ictimai nəzarətin təşkilində, korrupsiyanın ifşa edilməsində vətəndaş cəmiyyəti institutlarının rolunun artırılmasına xidmət göstərir.

Onu da qeyd edək ki, bu gün Azərbaycanda korrupsiya və rüşvətxorluğa qarşı sərt mübarizə aparılması, eyni zamanda, dövlət idarəçiliyində şəffaflığın gücləndirilməsi, elektron xidmətlərin inkişafına xüsusi diqqət yetirilməsi dövlət siyasətinin prioritet istiqamətlərindəndir.

Bu bəlaya qarşı ciddi mübarizənin daha da sərtləşdirilməsi, Korrupsiyaya qarşı mübarizəyə dair yeni Milli Fəaliyyət Planının qəbul edilməsi postpandemiya və postmüharibə dövründə sosial-iqtisadi inkişafı daha da sürətləndirəcək, yerli və beynəlxalq səviyyəli layihələrin müsbət nəticələrlə yekunlaşmasına əlverişli şərait yaradacaq. Regional inkişaf məsələlərində narahatlıq doğuran əngəllərin aradan qaldırılmasına müsbət təsir göstərəcək. Başqa sözlə, bölgələrin davamlı tərəqqisinə maneə yaradan bəzi məmurların ifşası yerlərdə yeni innovativ və daha səmərəli inkişaf modellərinin tətbiqinə yol açacaq. Bütün bunlar isə daha təminatlı, davamlı və uğurlu gələcəyin qurulmasına xidmət edəcək. Eyni zamanda, respublikada xalq-iqtidar birliyini daha da möhkəmləndirəcək, cəmiyyətin öz Prezidentinə inam və etimadını bir qədər də gücləndirəcək.

Ümumiyyətlə, Prezident İlham Əliyevin rəhbərliyi ilə hazırda ölkədə reallaşdırılan hüquqi, institusional və kadr islahatlarının əsas xətlərindən birini təşkil edən korrupsiya ilə mübarizənin daha da sərtləşdirilməsi və vətəndaş-məmur münasibətlərinin daha sağlam prinsiplər üzərində qurulması dövlət qulluqçularının şəffaf fəaliyyətinin təmin edilməsi və vətəndaş məmnunluğunun artırılması məqsədi daşıyır. Lakin dövlətimizin başçısının bir sıra çıxışlarında vurğulandığı kimi, təəssüf ki, geniş əhali qruplarını narazı salmağa yönələn mənfi halların hələ də təkrarlanması faktları müşahidə olunur. Dövlətimizin başçısı tərəfindən Korrupsiyaya qarşı mübarizəyə dair yeni Milli Fəaliyyət Planının təsdiqlənməsi də məhz bundan irəli gəlir.

Prezident İlham Əliyev ayrı-ayrı çıxışlarında da bu məqama toxunub, sosial-iqtisadi uğurlarımızı ölkədə yaşanan sabitliklə əlaqələndirib. Dövlətimizin başçısı bildirib ki, sabitlik olmadan heç bir dövlət inkişaf edə bilməz. Bu, aksiomadır. Bunu yaxın tarixdə dəfələrlə görmüşük. Sabitlik pozulan zaman inkişaf da zəifləyir, ölkə iqtisadiyyatı tənəzzülə uğrayır, sərmayə qoyuluşu dayanır. Bir sözlə, sabitlik hər bir ölkənin inkişafı üçün başlıca şərtdir. Respublikada isə sabitliyin mənbəyi xalqdır, onun iradəsidir və eyni zamanda, aparılan siyasətdir. Çünki Azərbaycanda reallaşdırılan siyasət milli maraqlara söykənir, milli maraqlar hakimiyyət üçün hər şeydən üstündür. Ölkəmizin təhlükəsizliyi, sabitliyi, iqtisadi və sosial inkişafı, beynəlxalq arenadakı artan rolu sabitliyin təminatçısıdır.

Məhz qeyd edilən bu məqamları nəzərdə tutan Prezident İlham Əliyev çıxışlarının birində deyib: "İnkişafımız bundan sonra da uğurlu olacaq, gələcəyimiz parlaq olacaq və uğurlu gələcəyimizin əsas şərti daxili sabitlikdir. Sabitliyin də təminatçısı Azərbaycan xalqıdır, onun rəyidir, onun bizə verdiyi dəstəkdir. Xalq-iqtidar birliyi Azərbaycanın uğurlu inkişafının əsas amillərindən biridir…".

Korrupsiyaya və rüşvətxorluq kimi bir bəlanın ən böyük zərbəsi də məhz xalq-iqtidar birliyinə dəyir. Bu məsələdə isə əsas məsuliyyəti idarəetmə strukturlarında yüksək vəzifə tutan şəxslər daşıyırlar. Dövlət başçısı onlara ümidləri doğrultmayacaqları təqdirdə cəzalandırılacaqlarını da dəfələrlə xatırladıb: "Elə işləməlisiniz ki, xalq sizdən razı olsun. İlk növbədə, xalqa xidmət etmək və öz vəzifənizin öhdəsindən peşəkarcasına gəlmək sizin borcunuzdur. Digər tərəfdən, rəhbərlik edəcəyiniz şəhər və rayonlarda xoşagəlməz hallara qarşı çox ciddi mübarizə aparmalısınız. Korrupsiya, rüşvətxorluq Azərbaycanın gündəliyindən silinməlidir".

Sonda bir məqamı da xüsusilə qeyd etmək istərdik. Cənab İlham Əliyev Prezident kimi fəaliyyət göstərdiyi 18 il ərzində keçirdiyi bütün rəsmi, yaxud qeyri-rəsmi görüşlərində, tədbirlərdə məmurlara, ilk növbədə, yerlərdə vəziyyəti düzgün qiymətləndirməyin, bununla bağlı çox ciddi təhlillər aparmağın, çatışmayan cəhətlərin üzə çıxarılmasının, habelə mövcud problemlərin həlli üçün səy göstərilməsinin zəruriliyini diqqətə çatdırıb. Yalnız belə halda xalqa ləyaqətlə xidmət etmək nümunəsi göstərilməsinin mümkünlüyünü xatırladıb. Dövlətimizin başçısı deyib: "Xalqa xidmət etmək hər bir dövlət məmurunun borcudur və dəfələrlə demişəm ki, mən Prezident kimi öz vəzifəmi bunda görürəm – xalqa xidmət etmək. Məhz bu xidmətə görə Azərbaycan əhalisi bizə çox böyük dəstək göstərir".

***"Xalq qəzeti"***